**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
AZƏRBAYCAN DÖVLƏT RƏSSAMLIQ
AKADEMİYASI**

*Əlyazma hüququnda*

**ZƏKİYƏ AQİF QIZI NURİYEVA**

# MÜSTƏQİLLİK DÖVRÜNDƏ AZƏRBAYCAN BOYAKARLIĞINDA MƏNZƏRƏ JANRININ İNKİŞAFI

İxtisas: 6215.01 – Təsviri sənət

Sənətşünaslıq üzrə fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**B A K I – 2016**

Dissertasiya Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin "Təsviri sənət tarixi və nəzəriyyəsi" kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər:** **Sabirə Səfi qızı Dünyamalıyeva**
**Sənətşünaslıq üzrə elmlər doktoru, dosent**

**Rəsmi opponentlər:** **Səlhab İsa oğlu Məmmədov**
**Xalq rəssamı, professor**

**Elnarə Nəsrəddin qızı Musayeva**
**Sənətşünaslıq üzrə fəlsəfə doktoru**

**Aparıcı təşkilat:** **Azərbaycan Milli Elmlər Akademiyasının Memarlıq və İncəsənət İnstitutu**

Müdafiə **"_30__" noyabr__ 2016–cı ildə saat 11:00-da** Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının nəzdində nəzdində yaradılmış FD.02.191 Dissertasiya Şurasının iclasında keçiriləcək.

Ünvan: Az 1029, Bakı ş., H.Əliyev prospekti, 26.

Dissertasiya ilə Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferat **"_31_"___oktyabr______ 2016-cı il** tarixində göndərilmişdi.

**FD.02.191 Dissertasiya Şurasının**
**elmi katibi, sənətşünaslıq**
**üzrə fəlsəfə doktoru:** **X.Z.Əsgərova**

## İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Azərbaycanın müstəqillik əldə etməsi ilə təsviri sənətin ideoloji asılılıqdan azad olması baş vermişdir ki, bu da özünü onun müxtəlif sahələrinin yeni bədii-estetik məziyyətlərlə zənginləşməsində göstərmişdir. Bu yeniləşməni rəngkarlığın aparıcı sayılan mənzərə janrında da müşahidə etmək mümkündür. Amma nədənsə müstəqillik qazanmağımızdan iyirmi beş il keçməsinə baxmayaraq, bədii məkanda baş tutan mürəkkəb və çətin inkişafın mənzərə janrında təzahürü əhatəli təhlil obyektinə çevrilməmiş, mənzərə estetikasının daşıdığı bədii xüsusiyyətlərin yeniləşməsinə elmi münasibət bildirilməmişdir.

Müstəqillik illərində (1991–2015) mənzərə janrında işlənmiş əsərlər yeni dövr üçün aktuallıq kəsb etməsinə baxmayaraq, bu vaxta kimi geniş tədqiqat obyektinə və predmetinə çevrilməmiş sənət nümunələrindəndir. Əslində mənzərə janrında yaradılmış bu əsərlər müstəqillik dövrü təsviri sənət tariximizin öyrənilməsi və tədqiqi üçün zəngin materialdır. Belə ki, onlarda dövrün yeniləşməyə meylli bədii təzadlarının ifadəsini əks etdirən bədii-estetik dəyərlər kifayət qədər görünəndir. Bu mənada bu əsərlərin konkret məna-məzmun daşıyıcılığının və estetik tutumunun araşdırmasının, onlardakı müəllif şərhinin dəyərləndirilməsinin elmi əhəmiyyət daşımaqla yanaşı, sənətşünaslığımızın inkişafının tədqiqi üçün zəngin material verməsi birmənalıdır.

Azərbaycan təsviri sənətinin çağdaş ümumi panoramı kifayət qədər geniş, çoxcəhətli və bir az da dəyişkəndir. Bu günkü durum özündə rəssamların ən müxtəlif nəsillərinin fərqli - temperamentli, özünəməxsus görümlü və çeşidli bədii şərhli yaradıcılığını yaşadır. Müxtəlif mövzulu bu əsərlərin diqqətçəkən başlıca məziyyəti onların başlanğıcda vurğuladığımız kimi, hər hansı ideologiyanın təsirindən azad görünmələridir. Onlarda çeşidli mütərəqqi və müasir "izm"lərin işartıları nə qədər qabarıq duyulsa da, bu əsərlər ənənəviləşən "sosialist realizmi" qəlibindən çox uzaqdırlar. Bu gün yaradıcılar üçün formaca milli, məzmunca sosialist əsərlər yaratmaq kimi məcburi yönəltmə də mövcud deyil. Sərgi salonlarına gedən yollarda alınmaz qalaya bənzəyən bədii şuralar da yoxdur. Ölkə müstəqilliyinin verdiyi bu qədər imtiyazların qarşılığında əsərlərin duyğulandırıcı bədii-esteik dəyərlərə malik olmasına yalnız və yalnız

sənətkarın öz vicdanı hakimlik edir. Odur ki, həm də mənzərə janrında müşahidə olunan bu cür fərqli bədii yanaşmanın elmi tədqiqi və dəyərləndirilməsi aktuallıq kəsb edir.

**<u>Problemin işlənmə dərəcəsi</u>.** Azərbaycan boyakarlığının tərkib hissəsi olan mənzərə janrı yuxarıda da vurğuladığımız kimi müstəqillik illərində təsviri sənətdə xüsusi elmi tədqiqatın predmeti olmamışdır. Başqa sözlə desək, Azərbaycan rəssamlarının vurğuladığımız dövrdə yaratdıqları mənzərə janrlı əsərlərinin kompleksli və detallı tədqiqinə həsr olunmuş mükəmməl elmi iş bu günə kimi yazılmamışdır. Bununla yanaşı, yaşlı nəsli təmsil edən fırça ustalarının bu sahədəki fəaliyyətinin bəzi məqamlarını ölkədə nəşr olunan sənətşünaslıq ədəbiyyatının fundamental tədqiqatlarına daxil edildiyini də qeyd etmək lazımdır. Rəssamlarımızın mənzərə janrı sahəsindəki yaradıcılığının epizodik tədqiqi və sona qədər öyrənilməməsi problemin qoyuluşunu və onun geniş tutumda işlənməsini aktual edir.

Mənzərə janrına həsr olunmuş tədqiqatlar arasında Əliyev Z.A. “Zakir Hüseynov. Tənha döyüşçü”, “Ceyhun Həmzəyev. Sönmüş ocağın işıqları”, “Cəmil Müfidzadə. Cizgilərə hopan ömür”, Vahabova D. “Другое искусство”, Həbibov N. “Живопись Советского Азербайджана”, M.Nəcəfovun “Живопись Азербайджанской ССР” və Həsənzadə C. “Kamil Nəcəfzadə” kitablarını qeyd etmək olar. “Xalqbank”ın son illər nəşr etdirdiyi və “Böyükağa Mirzəzadə”, “Vəcihə Səmədova”, “Səttar Bəhlulzadə”, “Xalidə Səfərova və Mahmud Tağıyev”, “Gəncə rəssamları”, “Mikayıl Abdullayev” və “Maral Rəhmanzadə” (mətnlərin müəllifi Şirin Məlikovadır) kitablarında da yaradıcılığı müstəqillik dövrünə təsadüf edən həmin rəssamların mənzərə janrında işlədikləri əsərlərdən söz açılır.

Bunlarla yanaşı M.Nəcəfov, P.Hacıyev, R.Əfəndiyev, K.Kərimov və b. tədqiqatçıların monoqrafiyalarında və yazılarında yaşlı və orta nəsil Azərbaycan rəssamlarının bədii irsində mövcud olan mənzərə janrına həsr olunmuş əsərlər təhlil edilmişdir. Bu yöndə görülən işlər arasında ayrı-ayrı nəşrlər - bukletlər və kataloqlar da mövcuddur.

Qeyd etmək lazımdır ki, təsviri sənətin müstəqillik dövrünü əhatə edən mənzərə janrının öyrənilməsi üçün sənətşünasların müasir nəsli tərəfindən də az iş görülməmişdir. Z.Əliyevin, L.Axund-zadənin, D.Vahabovanın, G.Mirzənin, X.Əsgərovanın, S.Sadıqovun,

N.Axundovanın və b. elmi əsərlərində fırça ustalarının bu sahədəki yaradıcılığına yeni müasir nəzəri-metodik yanaşma və Azərbaycan təsviri sənətinin inkişafı prosesində yaranan yeni istiqamətlərin mənimsənilməsindən istifadə nəzərə çarpır.

Azərbaycan rəngkarlığında mənzərə janrının inkişafına retrospektiv baxış kimi Leyla Axundzadənin" Пейзажная живопись Советского Азербайджана [1920–1980]" adlı namizədlik dissertasiyasını (Bakı, 1984) göstərmək olar. Bu elmi iş Azərbaycan sovet dövrü rəngkarlığında mənzərə janrının yaranma səbəblərinin, inkişaf mərhələlərinin, bədii–texnoloji və üslub xüsusiyyətlərinin kompleks şəklində öyrənilməsinə həsr olunmuş tədqiqat işidir.

Azərbaycan rəssamlarının yaradıcılığında sənaye mövzusunu hərtərəfli şəkildə əks etdirən tədqiqat işlərindən birinə Nigar Axundovanın "Azərbayacan rəssamlarının yaradıcılığında sənaye mövzusu" (Bakı, 2014) adlı fəlsəfə doktoru dissertasiyasını aid etmək olar.

Bununla belə bütün bu işlərin Azərbaycan rəssamlarının bu mövzuya həsr olunmuş yaradıcılığının xronoloji ardıcıllığını tam şəkildə əks etdirmədiyini qeyd etməliyik. Bu mənada təqdim olunmuş dissertasiya Azərbaycan rəssamlarının müstəqillik illərində mənzərə janrı sahəsinə həsr olunmuş yaradıcılığının daha dərin və hərtərəfli təhlilini əhatə edən ilk elmi tədqiqatdır.

**Tədqiqatın məqsədi və vəzifələri.** Tədqiqat işinin əsas məqsədi müasir Azərbaycan boyakarlığında mənzərə janrının inkişafını sistemli, monoqrafik tədqiq edərək, bu sahədə yaranmış yeni əsərlərin bədii xüsusuyyətlərini, aparıcı sənətkarları və onların yaradıcılıqlarında olan mənzərələrin bədii-estetik tutumunun istiqamətlərini müəyyən etməkdir. Eyni zamanda Azərbaycan rəngkarlığında mənzərə janrının keçdiyi tarixi yola nəzər salmaq, yeni yaranmış bədii ənənələri müəyyənləşdirmək də elmi araşdırmanın məqsəd və vəzifəsinə daxildir. Tədqiqatın əsas vəzifələri kimi aşağıdakıları qeyd etmək olar:

– Azərbaycan rəngkarlığında mənzərə janrının keçdiyi tarixi mərəhələyə nəzər yetirmək;
– XX əsrin son onilliyindən XXI əsrin ilk onilliyinin sonunadək Azərbaycan

rəngkarlığında mənzərə janrında yaradılmış əsərlərin yeni təmayüllərini, tendensiyalarını və bədii–texnoloji yeniliklərini üzə çıxarmaq;

- Boyakarlıq sahəsində çalışan müasir rəssamları müəyyənləşdirməklə, onların yaradıcılıqlarını təhlil etmək, yüksək bədii dəyərə malik mənzərə janrlı əsərlərini dəyərləndirmək;

– Təbiət motivli mənzərə əsərlərinin milli təsviri sənətimizi hansı özünəməxsus bədii-estetik dəyər daşıyıcıları ilə zənginləşdirməsini müəyyənləşdirilməsi;

– Müstəqillik illərində yerinə yetirilmiş sənaye mövzulu mənzərə əsərlərinin bədii xüsusiyyətlərini təhlil etmək;

**Tədqiqatın nəzəri-metodoloji əsasları.** Tədqiqatın metodologiyası mövzunun seçilməsi və onun XX–XXI əsrin Azərbaycan təsviri sənəti kontekstində araşdırılması zərurəti ilə şərtləndirilir. Sistemli tarixi metod Azərbaycanın aparıcı rəssamlarının yaradıcılığının ölkə təsviri sənətində mənzərə janrının inkişafı problemləri ilə əlaqələndirməyə imkan verir. Müqayisəli təhlil metodu özlərini mənzərə janrında göstərən rəssamların yaradıcılıqlarını qarşılaşdırmağa, onların texniki mövzuda işlədiyi əsərlərin yaradılmasında səciyyəvi xüsusiyyətlərini üzə çıxarmağa kömək edir.

Problemin tədqiqində tarixilik prinsipinə və xronoloji ardıcıllığa riayət edilmiş, başlıca olaraq tarixi-müqayisəli və sənətşünaslıq təhlili metodlarından istifadə olunmuşdur.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyekti qismində Azərbaycanın rəngkar rəssamları tərəfindən müstəqillik illərində yaradılmış mənzərə janrlı əsərlər təşkil edir.

Tədqiqatın predmetini müasir rəssamların yaratdıqları mənzərə əsərlərində məzmun və formanın bədii vəhdəti, əsərlərdə orijinal təfəkkürün müəyyənləşdirilməsi, təsvir xüsusiyyətləri və s. yaradıcılıq problemlərinin həlli məsələsi təşkil edir.

**Tədqiqatın elmi yeniliyi.** Tədqiqat işinin elmi yeniliyi məhz problemin qoyuluşu ilə müəyyən olunur və əsasən aşağıdakı müddəalarda öz əksini tapır:

– ilk dəfə Azərbaycan sənətşünaslığında müstəqillik dövrünü əhatə edən boyakarlıqda mənzərə janrı hərtərəfli–kompleks şəklində elmi təddqiqata cəlb olunmuşdur;

– Azərbaycanın dövlət müstəqilliyi əldə edilən vaxtdan 2015–ci ilin sonunadək olan dövrdə rənkgarlıqda yerinə yetirilmiş mənzərə janrlı əsərlər ilk dəfə olaraq sistemli, monoqrafik tədqiqat obyekti kimi çıxış edir;

– mənzərə janrı sahəsində əldə olunmuş yeniliklər ümumiləşdirilmiş və inkişaf tendensiyaları müəyyən edilmişdir;

– ilk dəfə müstəqillik illərində təbiət və şəhər motivlərinin mənzərə janrında bədii əksinin elmi şərhi verilmişdir;

– təsviri sənətin mənzərə janrlı əsərləri mövzu müxtəlifliyi əsasında təhlil olunmuş, bundan qaynaqlanan bədii-estetik nəticə və müddəalar üzə çıxarılmışdır;

– müstəqillik illərində rəssamların sənaye mövzusuna həsr olunmuş əsərlərinin səciyyəvi xüsusiyyətləri ilk dəfə elmi dəyərini almışdır;

**Tədqiqatın nəzəri və təcrübi əhəmiyyəti.** Tədqiqatda məna-məzmunun Azərbaycan təsviri sənətinin aparıcı sahələrindən biri sayılan rəngkarlıqda daşınan ideoloji yükə yox, bilavasitə bədii-estetik dəyərinə görə öyrənilməsi onun nəzəri və praktiki əhəmiyyətinin əsasını təşkil edir. Odur ki, bu elmi-tədqiqat işi öz əhatəli məzmununa görə - bütünlükdə müstəqillik dövründə yaradılmış mənzərə janrlı əsərlərin təhlilinə və bu sahənin daşıdığı bədii–estetik tutumun məcmusuna görə, ümumi Azərbaycan rəngkarlıq sənətində onun yerinin müəyyənləşdirilməsinə kömək edir.

Dissertasiya rəssamlıq təmayüllü ali və orta ixtisas təhsil rəngkarlıq və sənətşünaslıq üzrə təhsil alan tələbələrə "Rəngkarlıq tarixi" və "Azərbaycan incəsənəti tarixi" kursları çərçivəsində tədrisdə istifadə oluna bilər.

Həmçinin tədqiqat materialları sənətşünasların, kulturoloqların, filosofların elmi işində, muzey təcrübəsində, rəsm sərgilərinin komplektləşdirilməsində istifadə oluna bilər.

**Dissertasiyanın aprobasiyası.** Dissertasiya Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin "Təsviri sənət tarixi və nəzəriyyəsi" kafedrasında yerinə yetirilmiş və kafedranın iclasında müzakirə olunmuşdur. Araşdırmanın əsas məzmunu, elmi müddəaları və nəticələri 8 elmi məqalədə öz əksini tapmışdır.

**Dissertasiyanın quruluşu.** Dissertasiya giriş, iki fəsil, dörd yarım fəsil, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir. Tədqiqatın məzmunu kompüter yığımının 129 səhifəsində

öz əksini tapmış, illüstrasiyalar isə albom şəklində dissertasiyaya əlavə kimi təqdim olunmuşdur.

## İŞİN ƏSAS MƏZMUNU

**Girişdə** mövzunun aktuallığı əsaslandırılır, problemin işlənmə dərəcəsi, işin nəzəri-metodoloji əsasları, obyekti və predmeti, məqsəd və vəzifələri, elmi yeniliyi və nəzəri-təcrübi əhəmiyyəti açıqlanır.

**Birinci fəsil – "Mənzərə janrı Azərbaycan təsviri sənətinin ayrılmaz hissəsi kimi"** adlanır və rəngkarlıqda yerinə yetirilmiş mənzərə əsərlərinin bədii cəhətləri təhlil olunur. Bu fəsil iki yarımfəsildən ibarətdir. **"Azərbaycanda mənzərə janrının inkişaf tarixindən"** adlanan birinci yarımfəsildə boyakarlıqda əks olunmuş mənzərə əsərləri haqqında qısa məlumat öz əksini tapıb.

Təsviri sənətdə geniş yayılmış mənzərə janrı özündə əsasən təbiət təsvirlərini yaşadır. Azərbaycan boyakarlığında mənzərə janrına məna-məzmun, həm də ovqat daşıyıcısı kimi xüsusi əhəmiyyət verilmişdir. Əgər çoxəsrlik Azərbaycan incəsənəti tarixinə nəzər salsaq, onda qədim dövrlərdən bu günümüzə kimi yaradılan təsviri və tətbiqi sənət əsərlərində mənzərə elementlərinin bəzən işartısını, çox vaxt isə aparıcı rol oynayan məna-məzmun daşıyıcılığını görürük.

Azərbaycanlı sənətkarların rəngkarlıq sahəsindəki çağdaş uğurlarına doğru uzanan yol bizə gəlib çatmış qaya rəsmlərindən başlamaqla sonrakı dövrlərdə öz inkişafını daha çox keramika və xalçaçılıq kimi el sənətkarlığı növlərində əks etdirərək rəng duyumu baxımından yeni-yeni bədii-estetik məziyyətlərlə zənginləşmişdir. Orta əsrlərdə isə xalqımızın o vaxtlarda da, elə indi də dünya miqyasında tanınma nişanına çevrilən xalçaçılığa divar rəngkarlığı və dekorativ-tətbiqi sənət növlərinə aid olan və əlyazmaları zənginləşdirən, onun bəzəyinə çevrilən miniatür üslublu əsərlər də qoşulmuşdur. Müasir dövrə gəlib çatan nümunələrə əsaslansaq demək olar ki, XIII–XIV əsrlərdə özünün əlyazmalarında ilkin bədii-estetik məziyyətlərini formalaşdıran miniatür rəngkarlığı uzun müddət həm də orijinal üslub prinsipi kimi demək olar ki, bütün milli bədii yaradıcılıq sahələrinə dərin nüfuz etməklə çağdaş günümüzdə də dəyərini itirməyən həmişəyaşarlıq qazanmışdır.

Möhtəşəm sənət əsəri olan təbiətimizin gözəlliyindən, rəng silsiləsindən güc alan rəssamlardan biri Bəhruz Kəngərli realist mənzərə janrının əsasını qoyanlardan biri olmuşdur. Bu mənada onun yaradıcılığının böyük əksəriyyətini mənzərə janrında yaratmış olduğu əsərləri təşkil edir. Hətta bunu əsas götürən bəzi sənətşünaslar onu mənzərə rəssamı kimi xarakterizə edirlər. Düzdür, belə dəyərləndirmə rəssamın əhatəli yaradıcılığını bir qədər məhdudlaşdırmış olur. Ona görə də bu yerdə rəssamın mənzərə əsərlərinin bir çoxunun tariximizin ən parlaq dövrlərini özündə əks etdirməsini vurğulamaq olar. Belə ki, rəssamın bu əsərlərini təkcə mənzərə janrında yaradılmış əsərlər kimi yox, real tariximizin canlı əksi kimi xarakterizə etmək lazımdır.

Bir çox Azərbaycan rəssamlarının yaradıcılığında mənzərə janrına geniş yer ayrılması da heç şübhəsiz zamanında onların Bəhruz bəyin irsindən ilhamlanmalarının, yurdun təbiətinə məhəbbət dolu bədii münasibət bildirməyi ondan öyrənmələrinin nəticəsində olmuşdur. Bu mənada Səttar Bəhlulzadə, Səməd Haqverdiyev, Kamil Nəcəfzadə, Nəcəfqulu İsmayılov, Mahmud Tağıyev, Kamil Xanlarov, Mikayıl Abdullayev, Elbəy Rzaquliyev, Rasim Babayev, Böyükağa Mirzəzadə, Toğrul Nərimanbəyov, Tahir Salahov, Əyyub Hüseynov və onlarca başqalarının çəkdikləri mənzərələrin şöhrətinin ölkənin sərhədlərini çoxdan aşdığını qeyd etmək istərdik. Rəssamlarımız respublikamızın, vətənimizin bədii obrazlarını ağ kətan üzərinə köçürərək el-el, oba-oba, diyar-diyar gəzdirir, dünyaya tanıdırlar, desək, həqiqəti söyləmiş olarıq.

Səttar Bəhlulzadənin Quba, Gəncə və Şuşa ünvanlı mənzərələrini təbiətin daşıdığı, özünə “hopdurduğu” rənglərinin bütün incəliyinə qədər rəssam tərəfindən kəşf olunması, əsl sənətkarlıq nümunəsi hesab etmək olar. “Qızbənövşəyə gedən yol”, “Yaşıl xalı”, “Quba mənzərəsi”, “Xəzərdə axşam”, “Kəpəzin göz yaşları”, “Bağlar arasında”, “Cıdır düzü”, “Əmsar bağlarında” tablolarını rəssam yaradıcılığının özünəməxsus zirvəsi hesab etmək olar. Bu əsərlərdə rənglərin axıcılığı, keçidləri, harmoniyası və onların yaratdığı lirizm və romantik ruh sənətkarlıq baxımından çox yüksək və əlçatmazdır, desək, əsl həqiqəti ifadə etmiş olarıq.[1]

Kamil Xanlarovun mənzərələri rəng etibarı ilə dekorativ və gözoxşayandır. Kənd mövzusunda uzun illərin rəsm təcrübəsi özünü

---

[1] Əliyev Z. A. Səttar Bəhlulzadənin yaradıcılığında romantizm. fəlsəfə dokt. diss. avtoref. – Bakı, 2013. s. 14

göstərmiş, sanki iş prosesində, işlədikcə əsərlərinə daha da baxımlılıq bəxş etmişdir. Gerçəkliyə yaradıcı münasibət təbiəti kor-koranə yamsılamağı inkar edir. Belə ki, əslində təbiətin həmişə özünəməxsus obrazlı yanaşmaya, duyğulandırıcı ifadə tərzinə böyük ehtiyacı vardır və bu güclü məntiqə əsaslanır. Bu baxımdan onun "Zaqatala dağları", "Payız işığı", "Abşeron" kimi əsərləri güclü rəng təzadları üzərində qurulmuş və mahiyyətcə ümumiləşdirilmiş tutumdadırlar. Bu mənada geniş yaxılarla, rənglərin oynaq tonları ilə işlənmiş "Astara" mənzərəsi subtropik landşaftın təkrarsız gözəlliyini açıqlamaq baxımından kifayət qədər yaddaqalandır.[2]

Rəngkarlıqda mənzərə janrına geniş yer verən Nəcəfqulu İsmayılov müxtəlif illərdə "Mənzərə", "İstisu dağlarında", "Dağ mənzərəsi", "Dəniz sahili", "Sahil", "Qusar rayonu", "Dağlar" , "Qubadlı rayonu" , "Pirşağı" , "Stansiyaya yol", "Xosta" , "Bahar" kimi əsərlər yaratmışdır.

Boyakarlıq kompozisiyalarının janr və tematika müxtəlifliyində xalq rəssamı Kamil Nəcəfzadə də üstünlüyü mənzərəyə verir. Özünün fərdi istedadına görə boyakarlığa güclü meyli olan K.Nəcəfzadə o səbəbdən mənzərəyə üstünlük verir ki, boyakarlıq manerasının bədii ifadə zənginliyinin nümayişi üçün məhz bu janr daha orqanik, daha təbiidir.

Kamil Nəcəfzadənin mənzərə motivləri içərisində Xəzər dənizinin təsviri əhəmiyyətli yerlərdən birini tutur. Doğan günəşin şəfəqlərini, yaxud ay işığının saldığı cığırı əks etdirən suyun səthi, dəniz üzərində süzən qağayılar, ləpələrin yırğaladığı qayıqlar – bunlar hamısı, şübhəsiz ki, rəssam təxəyyülünə zəngin bədii qida verirdi. Üfüqi kompozisiyada mavi çalarlarla ifadə edilmiş "Aylı gecədə qayıqlar" əsəri dediyimiz bədii məziyyətləri özündə daşıyan nümunələrdəndir. [3]

Böyükağa Mirzəzadənin də müasir Azərbaycan rəngkarlığında, onun mənzərə janrının inkişafında əməyi duyulası qədər boyükdür. Rəssam müstəqillik illərində "Mənzərə", "Abşeronda", "Dəniz mənzərəsi", "Qayıqlar", "Fatmeyi hamamları" və s. mənzərə əsərlərini işləmişdir. Bu əsərlərdə təbətin füsunkar görünüşü ilə yanaşı şəhər memarlıq tarixi abidələrinin də mənzərəsi canlandırılmışdır.

[2] Габибов Н. Живопись Советского Азербайджана – Баку: Элм, 1982, с. 38
[3] Həsənzadə C. Kamil Nəcəfzadə / - Bakı : Təhsil, 2009. – s. 18

Azərbaycan mənzərə janrını öz yaradıcılığı ilə zənginləşdirən görkəmli rəssamlar-dan biri də Xalq Rəssamı Toğrul Nərimanbəyovdur. T.Nərimanbəyovun romantik fırçası üçün koloritin ifadə qüvvəsi, ekspressiyası və cəsarətli ritmi, obrazların miqyaslılığı, emosional vüsəti səciyyəvidir, onu güclü xarakterlər, coşğun ehtiraslar, qızğın həyəcanlar düşündürür. Rəssamın "Xəzər üzərində şəfəq" əsərində verilən romantik gənclərin surətləri olduqca şairanədir. "Torpağın bərəkəti", "Məhsul bayramı", "Bakıda yay", "Moskva" kimi silsilə əsərlərindəki işıqlı, nikbin intonasiyalar təzad təşkil edir. Boyaların uyarlılığı, dekorativliyi "Nar", "Tarla düşərgəsi", "Çiçəklər", "Qocaman çinar", "Qız qalası", “İçəri şəhər” kimi mənzərələrini səciyyələndirir. Bunlar sanki torpağın həyat dolu şirəsindən, qızmar Abşeron günəşindən, Göyçayın, Zaqatalanın cöv-lan edən gur boyalarından yoğurulmuşdur. Təbiətdən alınan rənglərin dekorativliyi rəssamın səhnə tərtibatı və divar rəsmləri sahəsindəki uğurlu fəaliyyətində öz təsirini göstərməkdədir, desək, həqiqəti söyləmiş olarıq.

Görkəmli mənzərə əsərləri yaratmış ustad sənətkarlar sırasında Nadir Əbdürrəhmanovun özünəməxsus yeri vardır. Nadir Əbdürrəhmanovun "Çəltik tarlasında", "Sevimli naxışlar", "Dağlarda bahar", "Bizim dağların adamları", "Azərbaycan dağlarında bahar" tabloları əhval-ruhiyyə baxımından lirikdir, emosionaldır. Rəssam kənd sakinlərini əsrarəngiz təbiət qoynunda təsvir edərək, onların qarayanız sifətlərində, əlvan libaslarında xüsusi gözəllik və cazibədarlıq tapır.

T.Salahovun mənzərə janrında yaratdığı əsərlər özünün bədii əlvanlığı ilə diqqəti cəlb edir. Onun mənzərələrinin hər birinə bəşəri ideyalılıq xüsusiyyətləri xasdır. Buraya “Bakı”, “Şirvanşahlar sarayı”, “Qız qalası”, “Bilgəh kəndi”, “Qədim Bakı”, “Qədim Bakının damları”, “Xəzərdə axşam”, “Xəzər”, “Hövsan”, “Tərk edilmiş bağ” və digər əsərlər daxildir.

Mənzərə janrında gözəl əsərlər yaratmış Azərbaycanın xanım rəssamları sırasında Xalidə Səfərovanın özünəməxsus yeri vardır. Xalidə Səfərova öz lirik, poetik mənzərələri ilə xalqımızın mənəvi aləmini, doğma diyarın günəşli təbiətini vəsf edib. Rəssamın əsərləri öz rəngarəngliyi, işıqlı, aydın rəngləri,valehedici çalarları ilə təsviri sənətdə silinməz iz qoyub. Hətta o, “əlvan boyalar rəssamı” kimi də şöhrət qazanıb.

XX əsrin 1960–80-ci illərində Azərbaycan rəngkarlığında impressionizm cərəyanının yayılması ərəfəsində Xalidə Səfərovanın müəyyən rolu olub. Bu fikri təsdiqləmək üçün onun "Bahar" tablosuna baxmaq kifayətdir. Əsərin mövzusu yaşıl çəmənlikdə ağ, mavi, çəhrayı, bənövşəyi çiçəklərin təsvirindən ibarətdir.

Fəslin II yarımfəsli **"Müstəqillik dövrü mənzərələrinin inkişaf tendensiyaları"** ndan bəhs edir. Bu yarımfəsildə müstəqillik illərində yerinə yetirilmiş mənzərə əsərlərinin təsvir və təhlili öz əksini tapmışdır.

Mənzərə Azərbaycan rəssamlarının yaradıcılığında müstəqillik dövründə də əhəmiyyətli yer tutur. Tənqidçilərin qeyd etdikləri kimi, Azərbaycan rəssamları əhval-ruhiyyə ilə zəngin olan lirik mənzərə ustaları kimi tanınmaqdadırlar. Təbiət onların əsərlərində özünün ilkin təbii-bakirə gözəlliyində, böyüklüyündə daimi hərəkətdə təqdim olunur. Onlar, təbiətin dəyişkən həyatına, vəziyyətinə və rəngarəng müxtəlifliyinə xüsusi əhəmiyyət verirdi. Mənzərələrdə baharda təbiətin təzələnməsi də, cazibədarlığı da, qızılı payızın saralıb solması da, tufanlı dənizin həyəcanı da, dumanlı səmanın ənginliyi də aydın tərzdə hiss olunur. Demək olar ki, ümumilikdə bu kətanların hamısına rəngin və formanın ekspressiyası, xətlərin plastik ritmi, koloritin zənginliyi xasdır. Azərbaycan rəssamları onu əhatə edən aləmi sevir, o hər şeyi işıqlı və nikbin görür. Aydındır ki, Azərbaycan rəssamları rəng palitrasında daim yeni ifadə vasitələrini axtaran sənətkarlardır. Onların Bakıya və Azərbaycanın gözəl guşələrinə həsr olunmuş bir çox mənzərələri üçün həyatı geniş tərzdə qavramaları səciyyəvi cəhətdir.

Azərbaycan rəngkarlığının inkişafında böyük əməyi olan Asəf Cəfərov, Böyükağa Mirzəzadə, Eyyub Məmmədov, Baba Əliyev, Hafiz Məmmədov, Lətif Feyzullayev, Xalidə Səfərova, Əyyub Hüseynov, Elbəy Rzaquliyev, Kamil Nəcəfzadə, Cahangir Rüstəmov və Qafar Seyfullayevin yaratdıqları yeni mənzərə janrlı əsərlərdə də öz ənənəvi dəst-xətlərinə sadiq qalmaq istəyi güclüdür.

Azərbaycan milli rəngkarlığının həm keçmiş SSRİ məkanında, həm də beynəlxalq miqyasda tanınmasında onun daxilində əsasən ötən əsrin yetmişinci illərindən başlayaraq böyük vüsət alan ideoloji və bədii üslub mübarizəsinin böyük rolu olub. Bu mübarizənin başlanğıcında Mircavad Mircavadov, onun kiçik qardaşı Tofiq Cavadov, Əşrəf Muradoğlu, Qorxmaz Əfəndiyev, sonrakı mərhələsində isə Kamal Əhməd, Fərhad Xəlilov, Nazim Rəhmanov,

Əlövsət Əliyev, Rafael Muradov və b. xüsusi fəallıq göstəriblər. Sənət tariximizə sonuncular "Abşeron məktəbi" təmsilçiləri kimi daxil olub, tanınıblar. Sovet dönəmində bu adlandırma qınaq, kinayə mənasında işlədilirdisə, müstəqillik illərində hər şey öz yerini qismən də olsa tutanda bu adlandırma artıq cəsarət və qürur, tərif mənasını aldı.

Görkəmli Azərbaycan rəssamları sırasında Tofiq Ağababayevin adını xüsusi qeyd etmək olar. Bir qayda olaraq Tofiq Ağababayevin bütün yaradıcılığı boyu bütün janrlara və mövzulara münasibəti fərqli və özünəməxsus olmuşdur. Mənzərə janrının bir qayda olaraq gözəllik qaynağı kimi qəbul edilməsinin qarşılığında Tofiq Ağababayevin təbiət motivləri qəribə də olsa bizi həm də düşündürür. Bu ilk növbədə ondan irəli gəlir ki, rəssam hamının gördüyü yerlərdə gözəlliklə yanaşı bunun yaranmasını şərtləndirə biləcək səbəblərə də yaradıcı insan münasibətini təqdim edir, həm də ilk baxışda gözəlliyin işartıları belə görünməyən yerlərdəki həmin bu qeyri–adi məziyyətləri bizə də göstərməyə çalışır. Rəssamın "Ümid rəngləri", "Sözsüz", "Yaz mahnısı", "Şərq motivi", "Yaz nəfəsi", "Kənd mənzərəsi" əsərləri ona şamil olunan bədii məziyyətləri özündə yaşadan sənət nümunələridirlər.

Özünün bir çox mənzərələrində Əyyub Məmmədov Azərbaycan torpağının bərəkətli görkəmini əks etdirərək, məkanın və atributların forma və fakturasını düzgün əks etdirən dekorativ rənglərə üstünlük vermişdir. Əyyub Məmmədovun son on ili əhatə edən yaradıcılığında əsas yerlərdən birini həm də Bakı və Abşerona həsr olunmuş mənzərələr tutur. Əlbəttə, bu motivlərə rəssam öz əvvəlki əsərlərində də dəfələrlə müraciət etmişdi. Lakin onlarda bu müraciət əsasən kompozisiyalarının yardımçı detalı, fon-yerliyi kimi çıxış edirdi. Yalnız 1980–cı illərdən başlayaraq rəssam Bakı və xüsusi ilə də Abşeron mövzusu ilə ciddi məşğul olmağa başlayır.

Doğma şəhərə həsr olunmuş mənzərələrində Əyyub Məmmədov ilk növbədə paytaxtın memarlıq görkəminin gözəlliyini və möhtəşəmliyini əks etdirir. Deyilənlərə parlaq misal kimi "Bakı , May səhəri" , "Bakı, sahil kənarı" və "Beşillik şəhəri" əsərlərini göstərmək olar. Bu əsərlər öz reallığı və yüksək icra peşəkarlığı ilə fərqlənirlər.[4]

---

[4] Paşayev H. Əyyub Məmmədovun yaradıcılığında Qarabağ mövzusu // Qobustan: sənət toplusu. 2011.- № 1.- səh.11-13.

Abşeron təbiətinin təsvirinə də rəssam xeyli enerji və yaradıcılıq imkanları sərf etmişdir. Bu mənzərə işlərinin səciyyəvi xüsusiyyəti onunla bağlıdır ki, onlarda ya ilin hər hansı bir fəsli ilə bağlı mənzərə –“Abşeronda qar” , “Abşeron gecəsi” , ya da onun böyük ərazisinin hansısa bir kiçik məkanı –“Abşeron sahili” , “Mərdəkanda” , “Abşeronda” , “Keçmiş yüzilliyin yaddaşı” əks etdirilir. Rəssamın bütün bu əsərləri həm də etnoqrafikdir. Onların hamısı Abşeronun səciyyəvi təbiət xüsusiyyətlərini və onun sakinlərinin 1980–cı illərdəki həyat tərzini, məişətini tam reallığı ilə əks edir.

Mənzərə janrına Kamal Əhmədov bütün yaradıcılığı boyu müraciət edib. Hələ erkən mənzərələrində o özünü avanqardın kubizm, ekspressionizm , nəhayət abstraksionizm kimi cərəyanlarına tamamilə inanan ardıcıl kimi göstərib. Xüsusən, “Abşeron motivi” 1980-ci ildə yaradılan bu əsər tam aydınlığı ilə özündə Deren və Vlamink ənənəsi daşıyır. Dissertasiyada rəssamın “Abşeron motivi”, “Dağlarda kənd”, “Görədil” seriyasından olan mənzərələri, “Görədildə suvarma kanalı”, “Qız qalası”, “Bilgəhdə mənim həyatım” əsərələrinin təhlili əksini tapmışdır.

İnamla demək olar ki, Azərbaycanda Səttar Bəhlulzadədən sonra “fəlsəfi mənzərə”nin özünəməxsus davamçılarından biri F.Xəlilovdur. O, məna tutumu çoxqatlı olan mənzərələrində əvvəlcə nisbətən reallığa tapınsa da, sonradan əsərlərinin bədii şərhini şərtilik və lokaniklik əvəzləmişdir.

Fərhad Xəlilovun “Qədim tut ağacı” , “Görədil” , “Dənizə gedən yol” , “Mərdəkanda həyət” , “Axşam düşür” , “Buzovnada qürub çağı” adlı sonralar “fəlsəfi mənzərə” adlandırılacaq əsərlərində müəllifin həyatı qavramasının və bədii şərhinin ilkin, bir qədər də reallığa tapınan işartılarını görmək mümkündür. Az sonra rəssamın mənzərələri bir qədər məna yığcamlığı və bədii şərhin şərtiliyi ilə seçilməyə başlayır. “Buzovna” , “Bulud və dəniz”, “Biçin” , “Görüş” , “Meşədə işıq” , “Qalada bahar” , “Kənd küçəsi” və “Günəşli gün” əsərlərində bunun, həm də kompozisiyaların lakonik-səthi rəng həlli ilə ifadəsini görmək mümkündür. Bədii ifadədə sərbəstlik, poetik rəmzdən istifadə ona əsərlərindəki rəngin naturanın surətini yox, obrazını yaratmaqda yardımçı olmuşdur, desək, həqiqəti söyləmiş olarıq...[5]

[5] Mehdixanlı T. Ənənəni yaşadan fırça ustası: [Xalq rəssamı Fərhad Xəlilov] //Azərbaycan.2006.- 2 noyabr.- səh. 8.

Sovet rəssamlığında "sərt üslub"un aparıcı olduğu altmışıncı illərdə sənətdə ilk addımlarını atan Rafael Muradovun bu üslub da daxil olmaqla qalanlarının da əleyhinə, başqa sözlə desək, ümumi axının əksinə getməyi yaradıcılıq amalına çevirən "Abşeron məktəbi"nə meyl göstərməsi bir qədər gənclik ehtirasına tapınsa da, düşünülmüş addım idi. Onun 40 illik yaradıcılıq yolu, eləcə də "müstəqillik dövrü" mərhələsi də bu məktəbə xas olan ən başlıca məziyyəti–tamaşaçının da daha çox inandığı səmimiliyi yaşatdığını təsdiqləyir. Bunun üçün o, heç də gur səslənən mövzulara, ecazkar motivlərə müraciət etməyib. Axtardıqlarını doğma Abşeron təbiətində və nemətlərində, bir də müasirlərinin həyat tərzində axtarıb tapıb. Onun "Tut ağacı", "Ayla mənzərə", "Xəzri", "Ərik ağacı" və s. mənzərə əsərləri də bunun təsdiqidir.

Özünəməxsus dəst-xəti olan Mirnadir Zeynalov da ruhən "Abşeron məktəbi"nə yaxın olan rəssamlardandır. Əsərlərinin bədii şərhini bəzən motivə uyğun, bəzən də arzuladığı ideyaya uyğun dəyişən rəssam bütün hallarda emosionallığını nümayiş etdirib. Bəzən isə onu fəlsəfi düşüncəyə bələyərək tamaşaçı fikirlərini hərdən cəmləşməyə, hərdən də paralamağa çalışıb. "İcad olunmuş mənzərə", "Payız təranələri", "Müqəddəs bahar" və s. əsərlərində lal sükutun emosionallıqla qoşalaşması kifayət qədər duyulandır. Rənglərin dili ilə təsvir edilmiş bu mənzərə əsərlərinin hər birinin özünəməxsus ovqatı var.

Əski milli qaynaqlarımıza öz yaradıcı və analitik münasibətini bildirməklə özünəməxsus əsərlər yaratmış Qəyyur Yunusun tablolarını son dövr rəngkarlığımızın fərqli nümunələrindən hesab etmək olar. Əsərlərinin bədii şərhində "Qacar üslubu"na istinad edən rəssam təkcə əski ənənələrlə anım yaradan yox, eyni zamanda geniş məna–məzmun daşıyıcısı olan əsərlər də yarada bilmişdir. "Əmircan mənzərəsi, "Xəzər gözəli", "Xəzərin sahilində", "Dağ ətəyində", "Bakı", "Abşeron bağlarında", "Bağ evləri" mənzərə tabloları bütün bədii–estetik məziyyətlərinə görə milli ruhlu və ovqatlıdır.

Nazim Bəykişiyev müasir rəngkarlığımıza vaxtilə Səttar Bəhlulzadənin gətirdiyi lirik ovqatı başqa bir biçimdə uğurla davam etdirməklə maraqlı əsərlər yarada bilmişdir. Bəyaz kətan üzərində ağ rəngin müxtəlif çalarları ilə yaratdığı pastel boyalarının yumşaqlığı ilə anım yaradan incəliklə təbiətin kövrək və təravətli məqamlarını

ifadə etməyə ("Ağ evlər", "Naxçıvan dağları", "Novxanı bağları", "Yağışdan əvvəl", "İçəri şəhər") imkan verib.[6]

"Müstəqillik dövrü" rəngkarlığında Asif Azərelli, Çingiz Fərzəliyev, Yuran Məmmədov, Rauf Şaşikaşvili, Oqtay Şıxəliyev, Sakit Məmmədov və başqalarının əsərlərində realizmin bədii ifadə imkanlarını genişləndirməyə cəhd hiss olunur.

Asif Azərellinin lap əvvəldən sadiq qaldığı real-gerçəkçi ənənələri yeni bədii-estetik məziyyətlərlə zənginləşdirə bilməsi diqqətçəkəndir. "Batabat" (2001) mənzərəsində Naxçıvan Muxtar Respublikasının Şahbuz rayonu ərazisində şirin sulu gölün ətrafında real səpkidə at sürüsünün qaçış səhnəsini dəqiqliklə təsvir edən rəssam, məkanın romantik-lirik tutum almasına nail olmuşdur. Bu sənət nümunəsi təkcə orijinal kompozisiyası və quruluşu, obrazlı həllin gözəlliyi ilə deyil, həm də dağ gölünün özünəməxsusluğunu təbii boyalarla ifadəsi ilə fərqlənir.

Əsərlərinin bədii həllində Qərb və Şərq ənənələrinin vəhdətinə tapınan Altay Sadıqzadə forma deformasiyaları və rənglərin rəmzləşməsi ilə fikirlərinin mücərrəd olsa da, inandırıcı və düşündürücü təqdimatına nail ola bilib. Bunu onun həm Bakı, Naxçıvan və xarici ölkələrə həsr etdiyi mənzərələrində görmək mümkündür.

Nazim Yunusov sənətdə özünün ifadə prinsiplərinə, fərdi dəst–xətinə görə seçilir. Doğma Abşeron təbiətini təbliğ edən şairanə tabloları tamaşaçıların yaddaşında əbədi iz qoyub. Mavi Xəzər, kənd evləri, təbiətin dəyişən özəllikləri dekorativ və yığcam tərzdə əks olunub. Nazim Yunusovun əsas fərqi bundan ibarətdir. Milli ənənələrdən faydalanan fırça ustası mənzərə əsərlərini real tərzdə təsvir etsə də, onlarda rənglərin lokal-ümumiləşdirilmiş təqdimatı üstünlük təşkil edir.

Yaradıcılıq həyatında nail olduğu ilə kifayətlənməyən, daima axtarışlar aparan Əlisəttar Səlimov mənzərələrində təbiətin sehrli gözəlliklərini dərk etməyə, rənglər vasitəsilə onu ifadə etməyə çalışırdı. O, təbiətdə müəyyən bir obyekti hava, işıq, ətraf mühitin təsirindən doğan dəyişiklikləri ilə ifadə etnək üçün yeni-yeni təsvir vasitələri tapmağa səy göstərirdi. Əsərlərində obrazlı ifadəlilik, əlvan rənglərin mütənasibliyi, zəngin kolorit diqqəti cəlb edir. Bu lövhələr bəzən lirik əhval-ruhiyyəli olub, rəssamın təbiətə bəslədiyi şairanə

---

[6] Ələsgərov Çingiz. Nazim Bəykişiyevin yaradıcılığı haqqında düşüncələr. Qobustan №2. 2004. səh. 36-38.

münasibətini, xarici ölkələrin təbiət gözəlliklərinə məftunluğunu əks etdirir, bəzən isə təbiətin əzəmətini, sərt gözəlliyini tərənnüm edir. Rəssam Əlisəttar Səlimovun “Dəhnə kəndi. Quba” adlı mənzərə əsərində dağ kəndinin ecazkar görünüşü canlandırılmışdır.

Eldar Qurbanovun yaradıcılığındakı mənzərə janrının bədii şərhi özünəməxsusluğu ilə seçilir. Onun “Göylərə ucalan ruhlar” , “Mənzərə” , “Yay”, “Abşeron motivi” , “Yeni Abşeron”, “Bibiheybətə gedən yol” və s. mənzərələri xüsusi zövq, yüksək sənətkarlıqla yaradılmış sənət əsərləridir. Mavi, göy, çəhrayı, ağ rəng çalarında işlənmiş həmin mənzərələr tamaşaçıda gözəl hisslərlə yanaşı, həm də həyəcan doğurur. Həmin mənzərələrdə incə lirik duyğularla pərvaz edən romantik xəyal və arzuların bir–birinə qovuşmasının bədiiliyini görmək mümkündür.

Müstəqillik illərindən etibarən mənzərə janrına daha artıq bağlanan Arif Ələsgərov yaratdığı əsərlərdə kompozisiya həllinə xüsusi diqqət yetirir. O, ölkəmizin və qardaş Türkiyənin müxtəlif güşələrinin bir çox lirik mənzərələrini yaratmışdır. Rəssamı ilhama gətirən təbiət motivləri rəngarəngdir. O, səfalı dağ mənzərələrini, meyvə bağlarını, şəhər görüntülərini, baharın gözəlliyini, payızın qızılı rənglərini dönə–dönə tərənnüm etmişdir. Onun “Göy qurşağı” , “Payız” , “Köhnə Bayıl” , “Ərzurum” mənzərələrində miniatür ənənələri ilə üzvi əlaqə duyulur, həmin əsərlərin dekorativ quruluşu Azərbaycan xalça və tikmələrinin cazibədar naxışlarını xatırladır. Rəng çalarlarından yetərincə istifadə, hər bir detalın diqqətlə öyrənilməsi, relyef, səma və bunların geniş həcmdə işlənilməsi, bu anda mütənasibliyə əməl edilməsi rəssamın əsərlərini daha baxımlı və əsrarəngiz edir. Rəssam mənzərə janrında işlədikcə həm özü, həm də tamaşaçı üçün sanki yeni bir aləm açır. [7]

Azərbaycan təsviri sənətinin çoxəsrlik tarixində özünəməxsus yeri olan Xalq rəssamı Nadir Qasımovun yaradıcılığında mənzərə janrı, əsasən də dəniz mövzusu geniş yer tutur. Rəssamın "Çəltik sahəsində", "Yaylaqda", "Naxçıvan dağları", "Xəzər mənzərəsi", "Xəzər. 1990–ci il. 20 yanvar" və digər tablolarında yurdumuzun füsünkar təbiəti canlandırılıb.

Müstəqillik dövrünün rəngkarlığında mənzərə janrını səciyyələndirən xüsusiyyətlərdən biri rəssamların fərqli bədii axtarışlarını çeşidli ifadə vasitələri ilə gerçəkləşdirməyə səy

[7] Hüseynov Elnur. Əməkdar rəssam Arif Ələsgərovun yubiley sərgisi: // Mədəniyyət. 2014.- 22 oktyabr.- səh. 9.

göstərmələridir. Əgər nisbətən yaşlı nəslin nümayəndəsi hesab olunan Oqtay Şıxəliyevin, eləcə də orta nəslin təmsilçisi Mirnadir Zeynalov, Mayis Ağabəyov və Eldar Qurbanovun əsərlərində onların ənənəvi bədii şərhlərə sədaqətləri duyulursa, nisbətən yaşca gənc olan Yavər Sultanov, Namiq Məmmədov, Təbriz Abdullayev, Mikayıl Əbdürrəhmanov, Müseyib Əmirov, Həmzə Abdullayev, Rəşad Mehdizadə, Əsmər Nərimanbəyovanın yaradıcılığında dəst–xətin yeniləşməsi, rəng fakturasının tutumluluğu, məna–məzmun yükünün daha da zənginləşməsi qabarıqdır.

**II Fəsil “Müstəqillik dövrü Azərbaycan mənzərə janrının bədii-estetik xüsusiyyətləri”** adlandırılmış və iki yarımfəsildən ibarətdir. Burada müstəqillik dövründə yerinə yetirilmiş təbiət, memarlıq və sənaye mənzərələri nəzərdən keçirilir.

Fəslin **“Müstəqillik dövründə təbiət və memarlıq mənzərələri bədii-estetik tutum daşıyıcısı kimi”** adlanan **I yarımfəslində** müstəqillik illərində bir çox yaşlı və gənc rəssamların yerinə yetirdikləri təbiət və memarlıq mənzərələri təsvir və təhlil olunmuşdur.

Azərbaycan rəssamlığında zamanın axarında formalaşmış gözəl ənənələr müstəqillik dövründə də inkişaf etdirilmiş, bir sıra novator keyfiyyətləri ilə zənginləşmişdir. Rəssamlarımızın lirik mənzərələrində doğma təbiətin rəngarəng gözəllikləri və özünəməxsus yerli koloriti şairanə bir şəkildə ifadə olunmuşdur. Lirik mənzərələr Xəzərin dalğaları, Göygölün, Kür və Araz çayının sahilləri, Kəpəzin və Şahdağın uca zirvələri, Qubanın, Şəkinin, Şuşanın bağlı-bağatlı yerləri, Lənkəran və Astaranın çay plantasiyaları, Gədəbəyin səfalı yaylaqları haqqında əyani təsəvvür yaradır.

Çağdaş Azərbaycan təsviri sənətinin çətin mənəvi yükünü çiynində şərəflə daşıyan və öz yaradıcılıq axtarışları ilə milli rəssamlığımızın beynəlxalq miqyasda qazandığı nüfuzunu qoruyan sənətkarlardan əməkdar rəssam Rafael Abasov, Ənvər Əsgərov, Tamilla Seyidova, İsa Məmmədov, Vaqif Ucatay, Qurban Məlikov, Elşən Hacızadə, Müseyib Əmirov, Zakir Hüseynovun müstəqillik dövrü yaradıcılığında mənzərə janrı özünəməsxusluğu ilə seçilmişdir.

Sənətşünaslıq üzrə fəlsəfə doktoru, əməkdar incəsənət xadimi Ziyadxan Əliyev Rafael Abasov haqqında qeyd edir ki “Elə ilk yaradıcılıq nümunələri ilə sənətinə başqalarında inam yaratmağa nail

olan Rafael Abasov haqlı olaraq rəngkarlıq məkanında imzası axtarılan müəlliflərdən birinə çevrilib. Onun müxtəlif mövzulu əsərlərini klassik sərt görüm tərzinə bir qədər də duyğulandırıcı lirik–romantik və ruh-ovqat qatması səciyələndirir. Bunu onun tamaşaçını ovqat bolluğuna qərq edən gözoxşayan mənzərələrində müşahidə etmək mümkündür”.[8]

Rafael Abasov müstəqillik illərində “Sakitlik” , “Naxçıvan dağları axşam çağı” , “İlandağ”, “Bilgəh mənzərəsi”, “Beşbarmaq” (Baş Barmək) ziyarətgahı , “Tutqun gün”, “Lerik mənzərəsi” , “Nardaran sahili” , “Mənzərə” və s. mənzərə əsərlərini yaratmışdır. [9]

Rəssam Ənvər Əsgərovun yaradıcılığında boyakarlığımızın bir çox janrları kimi mənzərə də özünəməxsus yer tutmuşdur. Rəssamın mənzərələrindən “Yanar dağ” , “Mənzərə”, “Abşeron” və “Xiyaban” tablolarında yurdumuzun ecazkar təbiəti öz əksini tapmışdır. Ənvər Əskərovun mənzərə əsərlərində təsvir nə qədər real olsa da, onları realist janra yalnız şərti mənada aid etmək olar.

Təbiətdə gördüyü gözəllik qaynaqlarına bədii görkəm verib ictimailəşdirməsi, onları hamı üçün estetik qaynağa çevirməsi Tamilla Seyidovanın çoxillik yaradıcılıq metodunun əsasını təşkil edir. Yaradıcılığının son on ilində rənglərə münasibətində də müəyyən dəyişikliklər hiss olunur. Onun bir rəngin təntənəsinə, təsir gücünə arxalanması da bunun təsdiqidir. Bu münasibət ayrıca və davamlı “müəyyən dövr” səciyyəsi daşımasa da, rəssamın ayrı–ayrı əsərlərində təkcə göy, mavi, çəhrayı, qırmızı, sarı və hətta ağ rəngdən istifadə edib təsirlilik əldə edə bilməsi heyranedici və yaddaqalandır.

İşıq və hava effektlərini tabloda canlandırmağı özünün başlıca yaradıcı vəzifələrindən hesab edən İsa Məmmədovun əsərlərində həyatın zəngin boyalarının fırçaya alınması, təbiətlə insanın vəhdətinin gerçəkləşdirilməsi onun sənətkar “mən”inin bir ifadəsidir. Belə ki, rəssam təsvir prosesində fərdi müşahidələrinə – canlı naturadan alınan ilk təəssürata əsaslanır, açıq havada işığın təsiri altında daim dəyişən rənglərin ahənginə xüsusi diqqət yetirir.

Doğma paytaxtımızın tərənnümü İsa Məmmədovun sevimli mövzularından biridir. Bu baxımdan onun Bakı şəhərini ilin müxtəlif çağlarında, günün müxtəlif vaxtlarında təsvir edən “Bakı motivi” ,

---

[8] Əliyev Z. Romantik duyğuların mahir ifadəçisi: Əməkdar rəssam Rafael Abasovun yaradıcılığı barəsində qeydlər//Palitra .-2010.- 26 noyabr.- səh.11

[9] Əliyeva M. "Sərt üslubda" lirik çalarlar:[Əməkdar rəssam Rəfael Abbasov haqqında] //Respublika.- 2009.- 14 aprel.- səh. 3.

“Vağzalyanı meydan” , “Bakı mənzərəsi” , “Fəvvarələr meydanı” , “Üç qız parkı” , “Bakı. Bizim küçə” , “Bakının Milli parkı” , “Bakı vağzalı” və s. əsərlərini qeyd etmək olar.

Müstəqillik illərində qocaman rəssam Qurban Məlikovun yaradıcılığında da mənzərə janrı aparıcı sahələrdən biridir. Rəssam təbiətindəki həyatsevərliyə, insanlara olan məhəbbətinə, təbiət guşələrinə və qocalmaq bilməyən ruhuna rəng qataraq tablolara köçürmüşdür. Rəssamın “Axşam vaxtı Pirşağı” , “Pirşağı” , “Mənzərə. Bağça”, “Bağ qumluq”, “Mənzərə. Pirşağı bağları”, “Gün batanda” , “İçərişəhər. Şirvanşahlar sarayı”, “Dənizdən görünüş” , “Dağlar ətəyində” və s. mənzərə əsərlərində yurdumuzun füsunkar görünüşü və tarixi memarlıq abidələri öz əksini tapmışdır.[10]

Rəssam Müseyib Əmirovun vaxtilə gördüklərinə, hazırda isə daha çox xatirələrə tapınaraq yaratdığı əsərlər, başqa sözlə desək, əslində bu günümüzlə keçmişimiz arasında mənəvi körpü yaratmağa xidmət edən “Abşeron sevgisi” həm də xalqın nə vaxtsa yaratdıqlarında hifz olunan yurda bağlılıq hisslərinin öləziməkdə olan yaşantılarını, bütün təravəti ilə olmasa da, duyğulandırıcı bir tutumda bərpa etməyə yönəli olduğundan çox təqdir olunandır. Müstəqillik illərində rəssam Müseyib Əmirov “Abşeron”, “Bakı gecəsi” adlı mənzərə əsərləri zəngin koloriti, əhatəli–üfqi kompozisiya biçimi və bitkinliyi ilə diqqəti cəlb edir. Bu əsərlərdə biz ilk növbədə tanış obyektlərə, ənənəvi mövzulara yeni və özünəməxsus münasibətin şahidi oluruq.

Müstəqillik illərində mənzərə janrı rəssam Zakir Hüseynovun da yaradıcılığında özünəməsxusluğu ilə seçilmişdir. Təbiətdə gördüklərini şişirtmək və bədii yalan ilə əhatələnmiş şəkildə tamaşaçıya təqdim etmək onun dahi sələfi Səttar Bəhlulzadənin də əsas yaradıcılıq prinsipi idi. Zamanında Səttarın arzu mənzərələri tamaşaçıları inandırıb, onları duyğulandırdığı kimi, Zakirin də vaxtaşırı çəkdiklərinin həyatdan götürüldüyü, reallıq olması heç kəsdə şübhə doğurmurdu. Heç şübhəsiz bu inandırıcılığı rəssamın reallıqla irrealıq arasında tapmağa nail olduğu özünəməxsus baxış anı şərtləndirmişdir.

Müstəqillik dövrünün mənzərə janrlı rəngkarlığından söz açarkən rəssamların onlar üçün yeni və gözlənilməz olan mövzuya münasibətlərini də vurğulamağı ehtiyac duyuruq. vurğulamaq lazım-

[10] Qurban Məlikov. Kataloq [İzomaterial] Bakı, 2009. 36 s.,

dır. Bu gənc rəssamlardan Vüqar Əli, Nazim Şamxalov, Təbriz Abdullayev, Səbinə Şıxlınskaya, Eyvaz Vəliyev, Valeh Kərimov, Nazim Məmmədovun, Sübhan Məmmədov, Emin Ələkbərov, Rəşad Nuriyev, Həmid Məhərrəmov, Xəyyam Səmədov, Bəxtiyar Yusubof, Ceyhun Həmzəyev, Ramin Məmmədov, Anar Hüseynzadə, Həsən Həsənov, Taleh Mirkazımzadə, Cəlal Ağayev və b. adlarını qeyd etmək olar ki, onların da yaradıcılıqlarında mənzərə janrı aparıcı sahə kimi inkişaf etmişdir.

Vüqar Əlinin mənzərə janrlı əsərlərində Abşerona, Bakının müxtəlif mənzərələrinə və memarlıq abidələrimizə yaddaqalan görüntü verdiyini söyləyə bilərik. Onun "Atəşgah" , "Mənim şəhərim", "Uşaqlıq xatirəsi" , "Mənzərə" , "İçəri şəhər" , "Qədim Bakı" və s. mənzərə əsərləri bunun təsdiqidir. Mövzu baxımından təzadlı olmaları dərhal duyulan bu lövhələri, əslində rəssamın yaşadığı zamanla apardığı "bədii dialoq" da adlandırmaq olar. Odur ki, onlarda təsvirə gətirilənlər göründüyündən daha çox rəssamın arzuladığı, xəyalında canlandırdığı biçimdədilər. Formalar və səthlər arasında klassik mənada olmalı olan həddləri "yoxa çıxarmaqla" onların birinin digərinə bağlılığını, rənglərin isə rəngi ilə yanaşı ifadə etdiyi hisslərin təbiətlə qovuşağına nail olan müəllif yaratdığı irreallıqla tamaşaçı düşüncələrini tarıma çəkə bilmişdir.

Mənzərə gənc rəssam Ceyhun Həmzəyevin də yaradıcılığında geniş yer ayırdığı janrlardan biri olmuşdur. Bunu təbii ki, ilk növbədə rəssamın müşahidə qabiliyyətinin genişliyi və ətraf mühiti, onun gözəlliyini duymaq istedadı ilə əlaqələndirmək olar. Onun çəkdiyi mənzərələr arasında həm doğma yurdumuzun, həm də qardaş Türkiyənin təbiət və memarlıq motivlərinin təsvirinə rast gəlmək mümkündür. Rəssamın mənzərə janrında yaratdığı "Baharda", "Yay", "Bahar nəğməsi", "Mədənə gedən yol", "Tac", "Qırmızı buruq", "Buruqlar", "Günəşli gün", "Qağayılar", "Milli parkda", "Köhnə hamam", "Küçə", "Bakı mənzərəsi", "İstanbulda məscid", "Qayıqlar" və "Yağışdan sonra" və s. əsərlərini qeyd etmək olar.

Gənc rəssam Taleh Mirkazımzadənin də yaradıcılığında mənzərə janrı aparıcı sahələrdən birini tutur. Onun "Bakı buxtası", "Yaxta klub", "Qala divarı", "Kənd mənzərəsi", "Nar ağacları", "İpək yolu", "Qız Qalası" mənzərlərində lirik təbiət səhnələri, şəhər və kənd təsviri öz əksini tapmışdır. Gənc rəngkar hər şeyi bilmək üçün doğma şəhəri öyrənir, onun özünəməxsus təkraredilməz gözəlliyi ilə fəxr edir.

**II yarımfəsil "Sənaye motivlərinin bədiiləşdirilməsi insan əməyinin tərənnümçüsü kimi"** adlanır və müstəqillik illərində bir çox yaşlı və gənc rəssamların yerinə yetirdiyi sənaye mənzərələrinə həsr olunub.

Azərbaycan ikinci dəfə müstəqillik qazandıqdan sonra (1991) bir çox sahələrdə olduğu kimi həm tikinti sənayesində, həm də neft sənayesində ciddi şəkildə addımlar atıldı. Müstəqillik qazandıqdan sonra Azərbaycanı bürüyən sənaye bumu müasir incəsənətin müxtəlif növlərində və janrlarında işləyən ölkənin aparıcı rəssamlarının marağına səbəb olmaya bilməzdi. Keçən nəsillərin nailiyyətlərini yenidən mənalandıraraq, eləcə də dünyadakı təsviri sənətin vəziyyətinə yönələrək, Azərbaycan rəssamları təbiətin gözəlliyini, neft hasilatı aparılan ərazi olan Abşeronun unikal aurasının dərk edilməsi yolunu davam etdirirdilər.

Beləliklə, müasir Azərbaycanda sənaye mövzusu yenidən aktuallaşdı və rəssamlar üçün cəlbedici oldu. Rəssamların yaradıcılığında "azadlıq" dövrü başladı-artıq heç bir ideoloji çərçivə onları məhdudlaşdırmırdı və onlar neft mövzusuna eksperimentlər sayəsində əldə etdikləri nəticələrlə yanaşmağa başladılar.

Müstəqillik illərində sənaye mənzərəsindən danışarkən Xalq rəssamı Böyükağa Mirzəzadənin, Xalq rəssamı Tahir Salahovun, Xalq rəssamı Nadir Qasımov, Elşən Hacızadənin, Qurban Məlikovun, Zakir Hüseynovun, Vüqar Əlinin, Emin Ələkbərovun, Bəxtiyar Yusufovun, Ceyhun Həmzəyevin, Taleh Mirkazımzadə və b. adları xüsusilə qeyd edilməlidir.

Öz əsərlərində xarakterik detalları, öz dövrünün surətlərini bir yerə yığa bilmiş Azərbaycan rəngkarlığının tanınmış simalarından hesab olan Böyükağa Mirzəzadə, ilkin yaradıcılıq dövründən başlayaraq sənaye mənzərəsinə böyük yer vermişdir. O, sovet dövründə yerinə yetirdiyi sənaye mənzərələri ilə yanaşı müstəqillik illərində də bir neçə əsərlər ərsəyə gətirmişdir. Bu qəbildən "Neft Daşları" (1999) əsəri ilk növbədə diqqəti özünə cəlb edir. Bütövlükdə B.Mirzəzadənin sənaye mövzusuna həsr olunmuş mənzərələri üçün rəngarənglik, bədii ümumiləşdirmə xasdır ki, bu da rəssamın kompozisiyanı isti havalı fəal həyatla doldurmaq istəyi ilə ifadə olunurdu.

T.Salahov yaradıcılığında sovet dövründə olduğu kimi ölkəmiz müstəqilik əldə etdikdən sonra da sənaye mövzusuna müraciət etmiş və son illərdə işlədiyi "Odlar yurdu" (2009) triptixi yeni əhəmiyyətə

malikdir. Triptixə daxil olan tablolarda rəssam tarixi keçmişimizin yadigarları olan "Qız qalası"nı, "Suraxanı atəşgahı"nı və müasir dövrümüzün sənaye qüdrətini özündə əks etdirən "Neft Daşları"nı təsvir edir.

Sənaye janrının ən görkəmli rəssamlarından biri Nadir Qasımov olmuşdur. Onun yaradıcılığı geniş mövzunun dərki, dəyişkən təbiətin ümumiləşdirilmiş surətinin yaradılması üzərində əsaslanır. Nadir Qasımov "sərt üsluba" meylli idi və yaradıcılığı boyu bu üsluba sadiq qalaraq bədii dilini müəyyən mükəmməlliyə çatdıra bilmişdir. Onun yaradıcılığı üçün yığcam və ifadəli bədii təsvir vasitələrini axtarmaq səciyyəvidir. O, sənaye motivlərinə xüsusi meyl göstərirdi. Rəssam öz tablolarında günəşlə yandırılmış və neftlə hopdurulmuş Abşeron torpağının özünəməxsusluğunu çəkir, estakadalarla yarılan Xəzər sularını, quruda və dənizdə ucalan neft buruqları meşəsini təsvir edirdi.

Zakir Hüseynovun sənaye motivli neft silsilə əsərlərinin bədii–estetik keyfiyyətlərindən söz açmalı olsaq, onda ilk növbədə rəssamın mövzunun bədii şərhi üçün tapdığı ifadə vastələrinin və bədii–yaradıcı münasibətin çox fərqli olmasını vurğulamalıyıq. Rəssamın sənaye mənzərələrindən "Çənlər", "Köhnə müəssisədə" , "Neftayırma müəssisəsi" , "Neft daşınır" qeyd etmək olar.

Sənaye mənzərəsinin əsasını təşkil edən neft mövzusuna Azərbaycan rəssamlığında kifayət qədər çox müraciət olunub. Təəssüf ki, bu münasibətlərin əksəriyyəti görünənlərin sadəcə kətana köçürülməsindən ibarət olub. Çoxlarına ağır yük kimi görünən qaralmış neft buruqları və mazutlu çənlər yalnız tək–tək rəssamın yaradıcı təxəyyülü nəticəsində onların gözyorucu ağırlığı incə tutumda tamaşaçıya göstərildi və sevdirildi. Bizim qənaətimizcə S.Bəhlulzadə, T.Salahov, B.Mirzəzadə, A.Hacıyev, Z.Hüseynov və b. əsərlərində neft mövzusu tamamilə ayrı bədii tutumdadır. Qeyd etdiyimiz müsbət cəhətləri Ceyhun Həmzəyevin də ərsəyə gətirdiyi bir – neçə sənaye mənzərəsində də görmək mümkündür. "Mədənə gedən yol", "Qırmızı buruq","Buruqlar", "Günəşli gün" əsərləri buna parlaq nümunədir. Yeri gəlmişkən qeyd edək ki, rəssamın neft mövzusunda çəkdiyi əsərlər mütəxəssislər tərəfindən yüksək dəyərləndirilmiş və bu əsərlər Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin keçirdiyi "İstedad – 2012" müsabiqəsinin ikinci mükafatına layiq görülmüşdür.

Vüqar Əlinin yaradıcılığında sənaye canlı təbiətə əks olan qapalı məkan kimi qavranılmır. Bu, məkanın dərinləşdirilməsində, sənayenin və təbiətin bərabərhüquqlu mövqeyinə gətirən düzənlik yerin təbiət landşaftına texniki elementləri daxil etməyə kömək edən üfüqi kompozisiyaların üstünlüyündə ifadə olunur ("Torpağın nağılı"), eləcə də Cənubun əlvan rənglərinə əsaslanan koloritə ("Səhər") əsaslanır.

Gənc rəssam Bəxtiyar Yusifovun yaradıcılığında sənaye mövzusu davamlı yer tutur, desək, həqiqəti söyləmiş olarıq. Belə ki, vaxtaşırı Abşeronu gəzib–dolaşan rəssam, uzaq–yaxın keçmişdə onun ayrılmaz bəzəyinə çevrilmiş neft mədənlərini kətana köçürməklə, sərtliyində qəribə gözəllik gizlənən torpağın "sənaye salnaməsi"ni bədiiləşdirməyə nail olmuşdur. "Neft daşları" , "Pirallahı" , "Qum adası", "Bakının Neft Daşları" əsərləri sənaye mövzusundadır.

Hələ ötən əsrin əllinci illərində sənaye motivlərini çoxlarından fərqli olaraq duyulası dərəcədə poetik–romantik tutumda təqdim etməklə Azərbaycan təsviri sənətində əmək mövzusuna yeni bədii şərh gətirən Səttar Bəhlulzadə ənənələri bu gün də davam etdirilməkdədir. Gənc rəssam Rəşad Nuriyevin 2013–cü ildə çəkdiyi "Neft buruqları" tablosunu bunun əyani təzahürü saymaq olar.

Taleh Mirkazımovun "Neft səltənəti" tablosu əfsanəvi Neft daşlarına həsr olunmuşdur. Açıq dənizdə aşkarlanan bu zəngin neft yatağı insan əli ilə tədricən şəhərciyə çevrildiyi andan dünyanın müasir möcüzələrindən sayılmaqdadır. Doğrudan da, çoxlarına fotoşəkillərdən və kinokadrlardan tanış olan Neft Daşları, məkan quruluşuna və əhatə dairəsinə görə çox orijinal bir yerdir. Elə rəssamın yağlı boya ilə çəkdiyi tabloda da, bu özünəməxsusluq duyulmaqdadır.

**Nəticədə** tədqiqatın yekunları təqdim edilir, təklif və tövsiyələr verilir.

Tədqiqatın nəticəsində 1991–2015-ci illər Azərbaycan boyakarlığında mənzərə janrının inkişafı ilə bağlı geniş faktoloji material toplanmış və sistemləşdirilmişdir. Tədqiqatın gedişatında Azərbaycan təsviri sənətinin boyakarlıq sahəsində mənzərə janrı mövzusunun inkişaf mərhələləri aşağıdakı kimi təsnif edilmişdir:

– Orta əsrlərdə ərsəyə gətirilən əlyazmaları bəzəyən miniatür üslublu illüstrasiyalarda təbiət mənzərələrinin yer alması təhlil edildi;

– XX əsrin əvvələrində yerinə yetirilmiş mənzərə janrlı əsərlərdə müəlliflərin motivləri qürurverici mənəvi qaynağa çevirmək istəyi üzə çıxarıldı;

– İyirminci yüzillikdə təsviri sənətin boyakarlıq sahəsində ərsəyə gətirilən mənzərə janrlı əsərlərin dövrün siyasi hadisələri ilə bağlılığı müəyyənləşdirildi;

– İdeoloji qadağalara təslim olmayan yaradıcıların mövcud bədii prosesin inkişafına özünəməxsusluq bəxş etməsi dəyərləndirildi;

– Müstəqillik illərinin mənzərə janrlı əsərlərində mövzu müxtəlifliyi üzə çıxdı;

– Nəzərdən keçirdiyimiz dövr ərzində Azərbaycan təsviri sənətinin rəngkarlıq sahəsinin mənzərə janrında olan əsərlərin tarixi yeni axtarış və orjinal tapıntılarla zənginləşdirildi ;

– Müstəqillik qazandıqdan sonra (1991) Azərbaycanı bürüyən sənaye bumu nəticəsində sənaye mövzusunun yenidən aktuallaşması ilə rəssamlar üçün cəlbedici olması və bu sahədə yeni sənaye mövzulu mənzərələrin yaradılması təsbit edildi .

– Üslub və dəst–xət müxtəlifliyi ilə seçilən mənzərə janrlı əsərlərin bütünlükdə Azərbaycan təsviri sənətində yeri müəyyənləşdirildi;

– Müstəqil Azərbaycan Respublikasının yaranması şəraitində təsviri sənətin inkişafında yeni mərhələnin başlanması nəzərə çarpdırıldı. Stilizasiya, improvizasiya üslub prinsiplərinə, modernist və avanqard cərəyanlarına meyl göstərən rəssamların "yeni dalğası"nın meydana çıxması və onların da yaradıcılıqlarında mənzərə janrlı əsərlərin yerinə yetirilməsi müəyyən edildi .

**Dissertasiyanın mövzusu üzrə müəllifin aşağıdakı məqalələri dərc olunmuşdur:**

1. 1950-60-cı illər Azərbaycan mənzərə rəssamlığına ötəri baxış // Qobustan №1,Bakı 2015. Səh. 51–53

2. 1970-80-ci illərdəAzərbaycan rəssamlığında mənzərə janrı // ADMİU Elmi əsərlər №18, Bakı 2014. Səh. 102–109

3. 1960-70-ci illər Azərbaycan rəssamlarının yaradıcılığında mənzərə janrı // ADMİU Mədəniyyət dünyası XVIII buraxılış, Bakı – 2014. Səh. 138–143

4. Gənc rəssamların yaradıcılığında mənzərə janrının yeri //Mədəniyyət. Az 8 (294) 2015. Səh. 80–83

5. Müstəqilik illərində əməkdar rəssam Rafael Abasovun yaratdığı mənzərə əsərləri // Xalça Muzeyinin dekorativ-tətbiqi sənət məsələri №3(17) 2015. Səh. 22–26

6. Тенденции развития пейзажного жанра // Научные Исследования в сфере Гуманитарных Наук: Открытия XXI века, II Международной научно–практический конференции, 23–24 апреля 2015 года, Пятигорск 2015. с. 215–220

7. Природные и архитектурные пейзажи периода независимости Азербайджана // "Поиск" ISSN–1560–1722, №4/2015. с. 118–122

8. Azərbaycan boyakarlığında mənzərə janrının inkişafı //Doktorantların və Gənc Tədqiqatçıların XIX Respublika Elmi Konfransının Materialları, Bakı-2015, II cild. Səh. 391–392

**Закия Агиф гызы Нуриева**

## Развития в живописи Азербайджана пейзажного жанра в годы независимости

### Резюме

Диссертация посвящена теме развития в живописи Азербайджана пейзажного жанра в годы независимости. Диссертация состоит их введения, двух глав,4 подглав и заключения.

Во введении обосновываются актуальность проблемы, степень изученности проблемы, теоретическая и методологическая основы, объект и предмет, цель и обязанности, излагаются хронологические границы, научная новизна и теоритическо-практическая значимость.

I глава называется "Пейзажный жанр – как неотъемлемая часть азербайджанской живописи" и здесь поддаются анализу художественные черты пейзажных живописных работ, а также тенденции развития пейзажных работ в годы независимости. В этой главе дается информация об историческом развитии пейзажного жанра в Азербайджане и о пейзажных работах в целом.

Во второй главе, названной "Художественно-эстетические черты пейзажного жанра Азербайджана в годы независимости" описываются работы, изобжающие природу, зодчество и отрасли промышленности, созданные художниками разных поколений в годы независимости.

В заключении представляют итоги исследования, даются рекомендации.

**The development of landscape genre in Azerbaijani painting during the independence period.**

## Summary

This dissertation is dedicated to the development of landscape genre in Azerbaijani painting during the independence period. The dissertation consists of introduction part, two paragraphs, four subparagraphs, conclusion part and the list of used literatures. The actuality of topic is based upon in the introduction part. The usage of the theme, its theoretical and methodological basis, objective and subjective parts, purposes and positions, chronological limits are commented, and its scientifically innovativeness, theoretical and practical significances are explained in this part.

The first paragraph is called «Landscape genre as an inseparable part of Azerbaijani Art» and the artistic features of landscape works performed in painting are analyzed, as well as, development tendencies, description and analysis of landscape pictures during the independence period are shown. The development history of landscape genre in Azerbaijan and landscape works in painting are talked about and shortly informed in this paragraph.

Natural, architectural and industrial landscapes performed by lots of old and young painters during independence years are reviewed, described and analyzed in the second paragraph that called «The artistic and aesthetic features of Azerbaijani landscape genre during independence period».

As a result, the conclusion of research, suggestions and recommendations are introduced.

Tiraj 100. Format 60x84 $^{1}/_{16}$

Azərbaycan Milli Elmlər Akademiyasının mətbəəsi
Bakı ş., H.Cavid pr-ti 115

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**
**АЗЕРБАЙДЖАНСКАЯ ГОСУДАРСТВЕННАЯ АКАДЕМИЯ ХУДОЖЕСТВ**

---

*На правах рукописи*

**ЗАКИЯ АГИФ гызы НУРИЕВА**

# Развития в живописи Азербайджана пейзажного жанра в годы независимости

**Специальность:** 6215.01 - Изобразительное искусство

## АВТОРЕФЕРАТ

диссертации на соискание ученой степени
доктора философии в области искусствоведения

**БАКУ - 2016**